Qafar Cəfərli



# SONRADAN SONRA...

(Hekayə)

**"Ay Allah, bu nə zülümdür mən düşmüşəm! Rəhmətə gedəndən bəri hər gecə yuxuma girir. Hər dəfə də mənə narazı nəzərlərlə baxır. Oğlunam da, niyə belə edirsən axı, ay kişi? Belə də ata olar? Qolumdan tutur, ayağa qaldırır, özü ilə aparacağını deyir... Beynim pozulub tamam. İki aydan çoxdur müalicə olunuram, heç bir xeyri yoxdur. Əlim hər işdən soyuyub. Bir az içib əhvalımı düzəltmək istəyirəm, o da alınmır, daha pis oluram . Gözlərimi yuman kimi gəlib durur qarşımda."**

Rəşid özü ilə danışırmış kimi sözləri öz içinə tökürdü.

Sonra baxışları yan otağa tərəf yönəldi. Anası Gülarə xanım həmin otaqda yatırdı. Yaxşı ki, heç olmasa o rahat yata bilirdi: astaca xorultusu, fısıltısı eşidilirdi.

"Yazıq arvad da başını tamam itirib. Bilmir mənə nə çarə qılsın."

Rəşid stolun üstündəki şüşədən balaca stəkana araq süzdü və birnəfəsə başına çəkdi. Limon yeyirmiş kimi üz-gözünü turşutdu, nəfəsini pülədi, əlinin arxası ilə dodaqlarını sildi. Boşqabda turşuya qoyulmuş xiyar vardı. Bir diş götürüb, tikəsini boşqaba atdı. Könülsüz çeynəməyə başladı və elə o cür də uddu. Saatı bilmək üçün stolun üstündəki mobil telefonu götürdü. Amma düymələri səhv saldığından telefonu koddan aça bilmədi.Təkrar qurdalamağa da hövsələsi çatmadı. Hər şeyə qarşı həssas və əsəbi olmuşdu.

Bayaqdan qulaqlarına dolan "çık-çık" səsləri anidən marağına səbəb oldu. Beynində: "Bu nə səsdir, hardan gəlir bu səs?"- kimi suallar yarandı. Başını qaldıranda divardan asılmış saatı gördü. İçərisində qara, zərli parça ilə örtülmüş Kəbə evinin şəkli vardı. Diqqətini də əvvəlcə Kəbə evi çəkdi. Birinci dəfə görürmüş kimi saatın özünə də zəndlə baxdı. Əcəb də saat idi. Qol saatı taxmırdı, vaxtı da yalnız mobilin ekranını açmaqla öyrənirdi. Divardakı saat isə... "Mən almamışamsa, demək, çoxdan orda asılıb... Bəs niyə görməmişəm?" - deyə düşündü. Və birdən Kəbə şəklinin içərisindən ağ libasda kiminsə ona baxıb nəsə dediyini hiss elədi. Bədəni üşəndi. Diqqətlə baxdıqda orada bir kimsəni görmədi. Amma oradan kiminsə baxdığına inamı daha da artdı. O naməlum varlıq kim idi və ona nə deyirdi?!

Deyəsən onu qarabasırdı.

Ayağa durub asta addımlarla saat asılan divara yaxınlaşdı. Bu dəfə daha yaxından, gözlərini qırpmadan, bütün diqqəti ilə baxmağa başladı. Beynindən qeyri-iradi fikirlər keçdi: "Bir ildən çoxdur bu evdə yaşayıram. Necə olub ki, bu saat diqqətimi çəkməyib. Allahım, kömək ol!" Başını buladı. "Eh, yazıq Allah da əlimizdən bezib. Daha duaları da eşitmir."

Səntirləyə-səntirləyə yataq otağına tərəf getdi. Yerişindəki nizamsızlığı hiss elədiyindən özünü dik tutmağa çalışdı.

Arxasınca o saatın içərisindən kimsə baxırdı. Onun baxışlarını kürəyində, səsini qulaqlarında hiss edirdi. Ancaq o kim idi və nə deyirdi?

"Məni əməlli-başlı qarabasır... Belə getsə, başım tamam xarab olacaq!"

Nəhayət ki, yataq otağına keçə bildi. Əlindəki mobil telefonu tumbanın üstünə qoymağa güclə macal tapdı. Başı hərləndiyindən özünü çətinliklə çarpayıya yetirdi və yorğanın üstünə sərilib qaldı.

Sanki divardakı saat durdu, işıqlar söndü, ətraf aləm susdu, hər şey boşluğa töküldü.

Heç nə hiss etmir, heç nə görmür, heç nə duymurdu.

Amma... Sonra,... sonradan sonra... və tədricən...

İçində bir səs dolaşır, ona nəsə anlatmağa çalışırdı. Bu nə səs idi? O hansı dildə danışırdı? O səsin sahibi kim idi? O nə demək istəyirdi?

Nə o səsi, nə də gördüklərini anlaya bilirdi.

...Rəşid gözlərini açanda əvvəlcə ətrafın qaranlığını hiss etdi, zülməti gördü, duydu. Və bundan vahimələndi. Sonra içindəki ağırlıq, başındakı uğultu özünü büruzə verdi. Daha sonra qaranlıq barədə düşündü. Ətraf niyə zülmət qaranlığa qərq olmuşdu? Lampaların dünən axşamüstü titrəməsini, sanki "göz vurmasını" xatırladı. "Ya işıqlar sönüb, ya da lampalar sıradan çıxıb,"-düşündü.

Nəfəsi təngiyirdi. Əlini uzadıb üz-gözünü ovuşdurdu, boğazını ovxaladı, sinəsini tumarladı, ağzını bütöv açıb dərindən nəfəs aldı. Daha bir qədərdən sonra tədricən özünə gəlməyə başladı. Amma bu qaranlıq da bir yandan əhvalını pozurdu. Kor kimi idi. Kor insan nələr çəkirmiş! Anadan kor doğulanı başa düşmək olar ki,o, dünyada heç nə görməyib. Bəs sonradan gözləri tutulan və ya gözü çıxana nə demək olar? Kor olduqdan sonra yaşamağa dəyərdimi? Dünənə kimi hər şeyi görən insanın qarşısına bir anda qara pərdə çəkilir və həyat büsbütün qaranlığa qərq olur!

O indi kor idimi? Atası onu həmişə kor olmaqda qınayırdı.

Ən dözümlü canlı həqiqətən də insan imiş! Yaradan Allah insana elə bir güc vermişdir ki, o düşdüyü bütün vəziyyətə həm öyrəşə, həm də eləcə yaşaya bilirdi.

Rəşid baxışlarını dolandırsa da ətrafda heç nə görmədi və əslində, dəqiq nəsə axtardığını da anlamadı. Qalxıb çarpayıda oturdu.

Bədəni büsbütün tər içində idi. Əynindəki köynəyinin ətəyi ilə üzünün tərini sildi.

Düşüncəsindən axıb keçən fikrə əhvalı tamam korlandı. Dodaqaltı :"Bu kişi məndən nə istəyir axı?!" - deyə mızıldandı. Əyilib tumbanın üstündəki mobil telefonun düyməsini basdı. Ekranda " 4-50" rəqəmi göründü. İlk rumkanı gecə saat ona iyirmi dəqiqə qalmış içdiyindən başqa heç nə xatırlamadı.

Dərindən köks ötürdü. Əlləri ilə saçlarını daraqladı.

Tərdən islanmış maykası, köynəyi tamam soyumuş, bədəninə yapışmışdı.

Mobil telefonun işığında əynini dəyişdi. Qapını açıb eyvana çıxmaq istəyəndə işıqlar yandı. Divar dibindəki bədənnüma güzgüyə yaxınlaşdı. Oradan ona miskin bir səfil baxırdı. Üz-gözündən, əyin-başından iyrəndi və tez arxaya çönüb otağın çıxış qapısına tərəf getdi. Anası Gülarə xanımın o biri otaqda yatdığını xatırladı.

Dəhlizin yuxarı başında stol qoyulmuşdu. Stolun dirəndiyi divardan atası Qadir müəllimin şəkli asılmışdı. Asta addımlarla həmin stola tərəf getdi və oradakı ağ plasmas stula oturdu. Başını qaldırıb atasının şəklinə baxmağa ürək eləmədi. Acığı, qəzəbi, tənəsi şəkillərdən də yağırdı. Heç ölməzdən əvvəl belə deyildi,... bu qədər deyildi. Öləndən sonra nə olmuşdu? Əyilib hər iki əli ilə üzünü örtdü. Bir neçə saniyə belə qaldı. Sonra dikəlib pəncərədən həyətə, dirəkdən asılmış fənərin işığına, o işığın şöləsi ilə işıqlanan həyətə və talvara baxdı. Atası Qadir müəllimlə həmin talvarın altında oturub etdikləri söhbətlər bir anda kino lenti kimi gözlərinin önündən gəlib keçdi.

...Qadir müəllim rayonun ən nüfuzlu məktəblərindən birində fizika fənnindən dərs deyirdi. Artıq onilliklərin müəllimi idi. Nəinki işlədiyi məktəbdə, eləcə də yaşadığı rayonda böyük nüfuz qazanmışdı. Ədəbli, ərkanlı, vicdanlı, əqidəli bir insan olmaqla yanaşı işində son dərəcə ciddi və tələbkar idi. Başqa müəllimlər məktəbdəki dərsləri yola verib evlərində repititorluqla məşğul ol-salar da Qadir müəllim bunu qəbul etmirdi. Məktəbdə bəlkə yeganə Qadir müəllimin dərsində şagirdlər tam tərkibdə iştirak edir, səssizcə dərsə qulaq asır və öyrənirdilər.

"Şagirdlərə məktəbdə dərs demək lazımdır, evdə yox!" Bunu Qadir müəllim deyirdi.

Qadir müəllim iki oğlunu və bir qızını da nümunəvi şagird kimi böyütməyə çalışırdı. Amma böyük oğlu Əkrəm Bakıda Universiteti bitirib magistraturanı oxumaq üçün xaricə gedəndən sonra hər şey dəyişdi. Gəlib xaricdəki həyat tərzi barədə şirin-şirin söhbətlər elədi. Və ailənin sanki nizamı pozuldu. Təhsilinin ikinci ilində oğlunun xaricdə yaşamaq istəyi bütün problemləri üzə çıxartdı. Əkrəmin atasının istəyinə məhəl qoymaması Rəşidə də təsirsiz ötüşmədi. Hərçənd, qızı Aynur da, Rəşid də Universiteti bitirdilər. Aynur rayona qayıdıb iki il atası ilə eyni məktəbdə çiyin-çiyinə dərs dedi. Sonra isə tələbə yoldaşı ilə ailə qurub Bakıya köçdü. Rəşid də Bakıdakı özəl şirkətlərin birində mühəndis olaraq çalışdı. Yaman sərbəst, bir az da vulqar olmuşdu: rayona, buradakı həyat tərzinə xor baxır, lağ edirdi. Rəşidlə bağlı daxilində olan narahatçılıq get-gedə özünü büruzə verməyə başlayırdı. "İnsan ətrafını, çevrəsini özü seçir" - deyən Qadir müəllim oğlu Rəşidin bəzi hərəkətlərindən sonra fikrini dəyişməli oldu. Anladı ki, "Düşdüyü mühit iradəcə zəif insanları dərhal ağuşuna çəkir və onu istədiyi cildə sala bilir". Elə bu səbəbdən də Qadir müəllim bütün varlığıyla sevdiyi işi ilə vidalaşdı. Həm təqaüd yaşı keçmişdi, həm də ailəsində baş verənlərdən sonra məktəbə gedib şagirdlərə tərbiyə verməyi vicdanına sığışdırmırdı. Birdən kimsə ona oğullarını tənə vurarsa... O zaman yalan danışa bilməyəcəkdi. Üzü sulu getmək daha yaxşı idi.

Özü demişkən: "Yerin, göyün, səmanın, ulduzların gedişatından xəbərdar olsam da beş nəfərlik ailəmdən bixəbər oldum."

Qadir müəllim təqaüdə çıxdı və həyat yoldaşı Gülarə xanımla tamam tək-tənha qaldı. Sanki yaşadığı bir ömürlük həyatı boşa getmişdi. Sonunda tək tənha, oğulsuz, uşaqsız, nəvələrsiz...

Atasının və həm də anasının israrlı xahişi və istəyi ilə Rəşid doğulduğu rayona qayıtdı. Amma problemlər burda da davam etdi. Rəşid atasını eşitmir, onunla razılaşmır, sanki qəsdən hər işin əksini edirdi. Üstəlik, axşamları dostları ilə yeyib-içməkdə, kefdə-damaqda keçirdirdi. O belə vəziyyətdə ikən Qadir müəllim artıq 28 yaşda olan oğlunu evləndirməyə də ürək eləmirdi. Hər dəfə bu barədə söhbət düşəndə Gülarəyə: "Kiminsə qızını bədbəxt etməyə haqqımız yoxdur!"- deyirdi. Son dəfə isə Rəşidin ağır içkili vəziyyətdə evə gəlməsi səbəbindən bərk narazılıq düşdü. Bu artıq həyasızlığın, tərbiyəsizliyin, hərınlığın sonu idi.

Bu narazılıq hər şeyə son qoydu. Oğlunun vəziyyətini yəqin ki, qonşular da, bir vaxtlar şagirdi olmuş digər adamlar da görmüşdü. Onun barəsində nələr düşünmüşdülər!?

Daxilən keçirtdiyi əsəb sarsıntılarına, mənəvi əzablara Qadir müəllimin ürəyi tab gətrmədi və o, bu nahaq dünyadan ayrılıb, haqq dünyasına köçdü... Sonra... Hər şey bununla bitdimi?

Rəşid üçün hər şey atasının ölümündən sonra başladı...

... Ayaq dırnağından tutmuş başının tükünə kimi indi Rəşidin bütün bədəni sızıldayırdı. Sanki günboyu çoxmərtəbəli binaya çiyinlərində sement dolu kisələr daşımışdı. Ağrıdan ayaqları bükülürdü.

Yerindən ehmalca qalxıb qapıya yönəldi. Həyətə düşüb, alaqaranlıqda asta addımlarla talvara yaxınlaşdı. Yaz havasının sərin mehi bədəninə yüngüllük gətirdi. Təkcə başı hələ də dumanlı idi.

Talvar altındakı oturacaqda əyləşdi. Cibindən siqaret qutusunu çıxartdı. Şalvarla yatdığından siqaret qutusu əzik-üzük halda idi. Qutudan çıxartdığı siqaret də əzilmişdi. Rəşid barmaqlarının arasında siqaretə tumar çəkib düzəltdi və damağına qoydu. Alışqanı isə başqa cibindən çıxardıb yandırdı. Bir qullab vurdu, tüstüdən öskürməyə başladı. Bir-iki ağız öskürdükdən sonra boğazını arıtdadı, sağ əli ilə boğazını sığalladı. Siqareti külqabıya basıb söndürdü. Gördüyü yuxunun təsirindən ayılmamışdı. Ürəyi sıxılsa da beynindəki fikirlər tədricən aydınlaşmağa başlayırdı. O nə yuxu idi görmüşdü?! Ətrafa işıq saçan ağ paltarlı o varlıq görəsən kim idi? Üzü görünmürdü. Bəs niyə Kəbə şəkli olan saatın içindən boylanırdı? Tanımasa da səsi ona çox doğma gəlmişdi.

Bütün bunlar nə demək idi?

Rəşid əzik qutudan yenə bir siqaret götürdü, yenə əli ilə hamarladı, damağına qoydu, yenə yandırıb bir qullab vurdu.

"Vallah, nə dedisə düz deyirdi. Atamı, anamı çox incitdim. Anam öz analıq hissləri ilə bacar-mayıb xətrimə dəymədi, amma atam gözümün qabağında şam kimi əridi. Hə,... Qadir müəllim kimi adamın övladı belə olmamalı idi."

Əlləri əsir, siqareti nə barmaqları arasında, nə də dodaqlarında saxlamağa sanki gücü çatmırdı. Siqareti külqabının kənarına qoya bildi.

" Ölümünə də mən səbəb oldum. Mən nankor oğul, mən etibarsız oğul, mən bədbəxt oğul... Yazıq kişi hər dəfə mənə: "Cavanlığın qədrini bil"- deyirdi. "Bu ömür insana bir dəfə verilir. İkinci dəfə anan səni doğmaz, ay bala." Eşitmədim onu, indi də hər gün ölüb dirilirəm. Tay-tuşlarım işgüc, ailə sahibidir, mən isə... "

Rəşid titrəyən əlləri ilə yanaqlarına süzülən göz yaşlarını sildi. Külqabıdan tüstülənən siqareti götürüb bu dəfə iki əli ilə tutdu və bir qullab vurub, tüstünü sinəsinə çəkdi. Siqareti yenidən külqabıya güclə qaytardı. Evə sarı məlul baxışlarla baxdı.

"Bacı yad evində... Qardaş gedib xaricdə yaşayır... Həftədə-ayda bir dəfə telefonla danışmaqla işini bitmiş hesab edir. Heç atasının dəfninə gələ bilmədi. Rahat həyat seçdi özünə. "

Narahatçılıqla yerində qurcalandı. Qardaşını ittiham etməyə haqqı çatırdımı?

"Neyləməlidir ki... Hər kəs öz həyatını yaşamaqda haqlıdır"- deyə düşündü.

Amma elə o andaca atası Qadir müəllim yenə gözü önünə gəldi. Atası da öz rahat həyatını əsas götürə, övladlarını vecinə almadan, özü üçün yaşaya bilməzdimi?

Rəşid düşüncəsindən axıb keçən bu sual qarşısında duruxub qaldı.

Əsən səhər mehi onu üşütməyə başlamışdı. Əlləri ilə qollarını ovxaladı, çiyinlərini qucaqladı. Bir neçə saniyə beləcə qaldı. Yenə qulaqlarında bir səs dolaşır və ona nəsə anlatmağa çalışırdı. Deyəsən yuxusunda da o varlığı görmüş, onun səsini eşitmişdi.

Birdən ayılan kimi oldu. Tədricən halı özünə gəlməyə başladı. Canındakı ağrılar da azaldı. Hətta gözləri işıqlandı. Bu dəfə düşüncəsindən keçənlərdən üzünə sevinc işartıları yayıldı.

Bu qədər sadə və bu qədər aşkar gerçəkliyi görməmiş, duymamış, hiss etməmişdi.

Arxadan səs eşitdi. Çevrilib baxsa da kimsəni görmədi. Həyacandan bədənini əsməcə tutdu. Anladı ki, bu səs yenə Kəbəli saatdan gəlir. Səs get-gedə aydınlaşdı:

-Atan səndən narazıdır.

Səsin kişi və ya qadına məxsus olmasını Rəşid ayırd edə bilmədi. O var-gücünü toplayaraq:-Bəəs mən nəəə edim?- deyə soruşdu.

-Bu gün cümə axşamıdır. Bütün ruhlar Yer üzünə, öz dünya evinə dönür. Get atanın məzarı üstündə halallıq istə, tövbə elə,bağışlanmağını dilə. Bəlkə bu yolla rahatlıq tapa biləsən.

-Bağışlayar?- Rəşid tələsik soruşdu.

Arxadan daha səs gəlmədi. Rəşid tez çevrilib baxdı. Ətrafda kimsə yox idi. Rəşidin canına qorxu doldu. Eşitdiyi səs o qədər aydın və ürəyəyatımlı idi ki, bunun qarabasma olmadığına daxilən inandı.

Rəşid dik ayağa qalxıb iri addımlarla evə girdi. Ürək edib divar saatına baxa bilmədi. Anası qonşu otaqda rahat yatmaqda davam edirdi.Tələsik yataq otağına keçdi. Bir nəfər onun yatağına sərilib yatırdı. Bu onun özü idi. Əyilib, özünü silkələdi və astadan özünə "Oyan!" dedi.

...Rəşid bir saata yaxın idi ki, atasının məzarı önündə dayanmışdı. Atasının məzar daşındakı şəkli diqqətlə ona baxırdı. Bu baxışları tanıdı. Onun qarşısında öz başını aşağı dikdi.

Burada molla da vardı və ucadan "Yasin" oxuyurdu. "Yasin" oxunduqca Rəşid öz içərisində tövbə deyirdi. İndi öz əməllərini çılpaq görür, heç nə ilə örtə, gizlədə bilmirdi.

Həyat bu qədər sadə, bu qədər açıq-aşkar var ikən nəsə gizlətmək çox gülünc olardı. Mollanın ucadan dediyi "Fatehə!" kəlməsi diqqətini silkələdi və onu özünə qaytardı. Atasının ruhuna fatihə verib ayrılanda başını qaldırıb qara məzar daşının içərisinə həkk olunmuş şəklə baxdı. Qəribə idi: indi atası ona gülümsəyirdi. Molladan bunu görüb-görmədiyini soruşmaq istədi. Molla çoxdan çıxıb getmişdi.

Qəbristanlıq darvazasından çıxarkən çevrilib arxaya baxdı. Atası Qadir müəllimin qara məzar daşından boylanan baxışları sevinc içərisində gülür, sanki ona əl yelləunder. Rəşid qəbristanlığın giriş qapısının dəmir ilməyini çəkib bağladı. Bir anlıq dayanıb ətrafı dinşedi. Ətrafdan it hürüşməsi, mal-heyvan mələrtisi, maşın səsləri və anlaşılmaz səslər-küylər eşidilirdi. Və bir də bülbül səsləri vardı. Bu səslər məzarlıqdan gəlirdi.

Başını qaldırıb göyə baxdı. Səhər günəşinin al şəfəqləri artıq səmanı və yeri tam işıqlandırmaqda idi. Həyat yeni günlərin sorağı ilə cana gəlirdi.

İndi Rəşid özünü çox yaxşı hiss edirdi.